**BMT- nin Avropa Iqtisadi Komissiyasi**



**" Sənaye qəzalarının transsərhəd təsiri"  Konvensiyası**

**"Azərbaycan Respublikasında təhlükəli fəaliyyət növlərinin müəyyənləşdirilməsi" üzrə təlim seminarı**

**27-28 oktyabr 2010-cu il**

**Bakı şəhəri**

# Ətraf mühitin mühafizəsi

- Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə olunması problemlərinin həllinə böyük diqqət yetirilir.
- «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı» problemlərin həllinə yönəldilən mühüm bir sənəddir.
- Avropa qanunvericiliyinin tələblərinə uyğunlaşdırılmış bir sıra mühüm qanunlar qəbul olunmuş, normativ-hüquqi sənədlər təsdiq edilmişdir.
- Ölkədə beynəlxalq, regional və dövlətlərarası ikitərəfli əməkdaşlıqlar inkişaf etdirilir.
- Bir sıra region dövlətləri, inkişaf etmiş dövlət və beynəlxalq təşkilatlar ilə sazişlər imzalanmışdır.
- Ətraf mühit sahəsində ölkəmiz əlaqələri genişləndirərək 20-dək beynəlxalq konvensiyaya qoşulmuşdur.

# Təsdiq edilmişdir

«Sənaye qəzalarının transsərhəd təsiri haqqında» Konvensiya Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya olunmuş və 04 may 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmişdir.

# Səlahiyyətli orqan

- Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 01 aprel tarixli 729 nömrəli Sərəncamı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi «Sənaye qəzalarının transsərhəd təsiri  haqqında» Konvensiya üzrə səlahiyyətli orqan təyin olunmuşdur.

# Əlaqəli qurumlar

- Ekologiya və Təbii Sərvətlər Nazirliyi
- Fövqəladə Hallar Nazirliyi
- Rayon və şəhər İcra Hakimiyyətləri nəzdində fövqəladə hallar komissiyaları

# Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturu



# Ekologiya və Təbii Sərvətlər Nazirliyinin səlahiyyətləri

- Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili və digər sahədə dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır;
- Ekoloji təhlükəsizliyi təmin edir, təbii ekoloji sistemlərə təsərrüfat və digər fəaliyyət nəticəsində dəyə biləcək zərərin qarşısını almaq üçün tədbirlər görür;
- Fövqəladə ekoloji və geoloji şəraiti, ekoloji və geoloji fəlakət zonalarını müəyyən edir və bu sahədə müvafiq dövlət tədbirləri həyata keçirir;
- Təbii hadisələr və qəzaların operativ şəkildə ləğv edilməsi məqsədilə təhlükəli təbii hadisələri fövqəladə hallara gətirib çıxaran, əhali və iqtisadiyyat üçün təhlükə törədən və dağıntılarla nəticələnən ətraf mühitin ekstremal çirklənməsinin qarşısının alınması üzrə tədbirlər görür;
- Ölkə ərazisində təhlükə potensiallı obyektlərin qeydiyyatını aparır və müvafiq orqanları bu barədə məlumatlandırır.

# Fövqəladə Hallar Nazirliyinin strukturu

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli fərmanı ilə təsdiq edilmişdir

- Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin strukturuna daxil olan əsas qurumlar
  - Dövlət Yanğından Mühafizə Xidməti
  - Dövlət Yanğın Nəzarəti Xidməti
  - Mülki müdafiə qoşunları
  - Dövlət Material Ehtiyatları Agentliyi
  - Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi
  - Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Agentliyi
  - Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyi
  - Dövlət Sularda Xilasetmə Xidməti
  - Hərbiləşdirilmiş Xüsusi Mühafizə Xidməti
  - Xəzər Hövzə Qəza-xilasetmə Xidməti
  - Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi
  - "İzotop" xüsusi kombinatı
  - Mərkəzi laboratoriya
  - Təcili Xilasetmə Xidməti
  - Regional mərkəzlər

# Fövqəladə Hallar Nazirliyinin səlahiyyətləri

- Mülki müdafiə, əhalinin və ərazilərin təbii və texnogen xarakterli qəzalardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin və digər sahələrdə dövlət siyasətini və tənzimlənməsini, bu sahələrdə idarəetməni, əlaqələndirməni və nəzarəti həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.
- "112" qaynar telefon xətti vasitəsilə təcili xilasetmə xidmətinin fəaliyyətini təmin edir;
- Potensial təhlükəli obyektlərin yerləşdiyi ərazilərdə lokal xəbərdarlıq sisteminin yaradılmasını təmin edir və s.

# Konvensiyadan irəli gələn öhdəliklər sahəsində əlavə tədbirlər

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 30 mart tarixli Sərəncamı

# Əlaqələndirmə

- Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Fövqəladə Hallar Nazirliyi arasında fövqəladə halların qarşısının alınması, nəticələrinin aradan qaldırılması və əlaqələndirmənin daha da gücləndirilməsi məqsədi ilə qarşılıqlı "Fəaliyyət Planı" təsdiq edilmişdir.
- Təsdiq edilmiş tədbirlərə "Sənaye qəzalarının transsərhəd təsiri haqqında" Konvensiyanın tələblərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üzrə informasiya mübadiləsinin aparılması bəndi daxil edilmişdir.

# Rabitə məntəqəsi

- Fövqəladə Hallar Nazirliyi fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə  mərkəzi icra hakimiyyəti orqanı olduğundan Nazirlikdə  Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin nəzdində 24 saat ərzində fəaliyyət göstərən  "112" nömrəli qaynar xətt yaradılmışdır.
- Bu barədə Konvensiyanın Katibliyi məlumatlandırılmış və Mərkəzin ünvanı, əlaqə telefonları və elektron ünvanları Konvensiyanın saytına yerləşdirilmişdir.

# Fövqəladə halların idarə edilməsi sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlıq

- Türkiyə Respublikası
- Fransa Respublikası
- İordaniya Krallığı
- Rumıniya
- Rusiya Federasiyası
- Belarus Respublikası
- Koreya Respublikası
- Ukrayna
- Almaniya Federativ Respublikası
- Bolqarıstan Respublikası

# Beynəlxalq yardım proqramı

- 27-30 oktyabr 2004-cü il tarixlərində Macarstanın paytaxtı Budapeşt şəhərində Konvensiya Tərəflərinin 3-cü konfransında Konvensiyanın tələblərinin həyata keçirilməsini və bu istiqamətdə ölkələrdəki prosesləri sürətləndirmək üçün beynəlxalq köməkliyin göstərilməsi proqramı hazırlanmışdır.
- Proqrama əsasən Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrinə Konvensiyanın tələblərinin həyata keçirilməsi üçün yardım göstərilməsi nəzərdə tutulur.

# Konvensiyanın Katibliyi tərəfindən vəziyyətin yerində araşdırılması

- Konvensiyanın Katibliyi tərəfindən vəziyyətin yerində araşdırılması məqsədilə, üç nəfərdən ibarət ekspertin 21-25 may 2006-cı il tarixlərində  ölkəmizə səfərləri təşkil olunmuşdur.
- Səfər proqramına uyğun olaraq, ekspertlərin Ekologiya və Təbii Sərvətlər Nazirliyində, Fövqəladə Hallar Nazirliyində, Nizami rayon İH-də və H. Əliyev adına "Azərneftyanacaq" neft emalı zavodunda mütəxəssislərlə görüşləri keçirilmişdir.
- Ekspertlər Fövqəladə Hallar Nazirliyində qəzaların məlumatlandırılması üçün yeni yaradılan rabitə məntəqələrinin işi ilə, H. Əliyev adına "Azərneftyanacaq" neft emalı zavodunda isə sənaye qəzaları zamanı məlumatların ötürülməsi işinin təşkili ilə tanış olmuşlar.

# Yardım proqramı çərivəsində treninqlər

- Konvensiyanın Katibliyi tərəfindən ölkələrdə təhlükəli fəaliyyətlərin qeydə alınması, böyük sənaye qəzalarının qarşısının alınması üçün inteqrə olunmuş yanaşma, məlumatların toplanması, işlənilməsi və ötürülməsi üzrə müxtəlif kurslar və təlimlər keçirilmişdir.
- Kiyev, Minsk və Praqa şəhərlərində keçirilən treninqlərdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri iştirak etmişlər.

# Həyata keçirilən layihələr

- Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsinə kömək məqsədilə 2003-2006-cı illərdə Almaniyanın Təbiətin və Ətraf mühitin mühafizəsi, Nüvə Reaktorlarının Təhlükəsizliyi üzrə Federal Nazirliyi tərəfindən maliyyələşdirilən «Kür çayı hövzəsində qəza vəziyyətinin xəbərdarlıq edilməsi üçün tədbirlərin hazırlanması və tətbiq edilməsi» layihəsi həyata keçirilmişdir.

# Layihənin məqsədi və nəticəsi

- Kür çayı hövzəsində insan sağlamlığı üçün təhlükənin azaldılması, sənayedə və istifadə olunmayan obyektlərdə qəza təhlükələrini əhəmiyyətli dərəcədə azaldılması, Avropa Birliyinə inteqrasiya imkanlarının artırılması məqsədilə təhlükəsizlik normalarına nail olunması, sənaye  qurğularının təhlükəsizliyinin təmin edilməsi məqsədilə yeni texnologiyaların mübadiləsi layihənin əsas məqsədləri olmuşdur.
- Layihə çərçivəsində Cənubi Qafqaz ölkələrinin paytaxtlarında (Ətraf mühitin mühafizəsi üzrə Nazirliklərin nəzdində) Kür çayı hövzəsində qəza vəziyyətlərinin xəbərdarlıq edilməsi məntəqələri yaradılmış və müvafiq avadanlıqlarla təmin edilmişdir.
- ETSN- də bu mərkəz Ətraf Mühit üzrə Milli Monotorinq Departamentinin Ətraf mühitin çirklənməsinin monitorinqi mərkəzində yaradılmışdır.

# Bakı şəhərindəki Məlumatlandırma Mərkəzi



# Layihə təklifləri

Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrinə Konvensiyanın tələblərinin həyata keçirilməsi üzrə yardım proqramı çərçivəsində təklif olunan layihələr.

- Azərbaycan Respublikasında təhlükəli fəaliyyət növlərinin müəyyənləşdirilməsi üzrə milli səviyyədə seminarın keçirilməsi ;
- Kür çayı hövzəsində ekoloji risklərə səbəb ola bilən sənaye qəzalarının milli səviyyədə məlumatlandırılması.

# Təlim seminarının məqsədi

Milli səviyyədə tədris seminarının keçirilməsinin əsas məqsədi:

- ölkədə təhlükəli fəaliyyət növlərinin müəyyənləşdirilməsi;
- ekspertlərin biliklərinin artırılması;
- məlumatların toplanması, işlənilməsi və ötürülməsi;
- qabaqcıl təcrübənin öyrənilməsi;
- Konvensiyanın rəhbər prinsiplərinin və kriteriyalarının başa düşülməsi.

DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRƏM!!!